Yazan
11.05.16 22:51



**Bakıda özünü İŞİD üzvü kimi t qdim ed n ş xs 8 yaşlı uşağı girov götürüb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən **AzNews.az**-a verilən məlumata görə, mayın 10-da Sabunçu rayonu ərazisində yerləşən Şuşa şəhərciyində yaşayan Elnur Ramazanlı 12-ci Polis Bölməsinə müraciət edərək mayın 9-da 8 yaşlı oğlu Hüseynin evdən çıxaraq geri qayıtmamasını bildirib.

Aparılmış araşdırmalarla özünü “İŞİD” üzvü kimi təqdim etmiş şəxsin E.Ramazanlının mobil telefonuna dəfələrlə zəng edib oğlu Hüseyni girov götürməsi, azad edilməsi müqabilində 30 000 manat pul istəməsi və polisə bu barədə məlumat veriləcəyi təqdirdə onun orqanlarını çıxarıb satacağını deməsi müəyyən edilib.

Bakı şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi və Sabunçu Rayon Polis İdarəsinin 12-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törədən Abşeron rayon sakini Elnur Məmmədov tutulub, şəhərciyin ərazisində yerləşən 2 mərtəbəli tikintisi başa çatmayan tikilidə əlləri, ayaqları və gözləri yapışqanlı lentlə bağlı vəziyyətdə olan Hüseyn tapılaraq valideynlərinə təhvil verilib.

Faktla əlaqədar cinayət işi başlanıb, araşdırma aparılır.

12:25
***
**AzNews.az** xəbər verir ki, AzVision.azın əməkdaşı girov götürülən uşağın yaşadığı evə baş çəkib.

Hüseynin anası Ramilə Ramazanlı bildirib ki, oğlu mayın 9-da həyətdə oynayan zaman oğurlanıb: “Hüseyn həyətdə oynayırdı. Üstündən bir müddət vaxt keçəndən sonra gördüm ki, Hüseyn həyətdə yoxdur. Axşam saat 22:00 radələrində bir nəfər zəng edib dedi ki, uşağınızı girov götürmüşəm. Uşağı azad eləmək üçün 30 min manat verməlisiniz.